**UOT 81 41; 801.7**
https://doi.org/10.59849/2218-4783.2026.2.145

# QƏDİM AZƏRBAYCAN ƏRAZİSİNDƏN QOPARILMIŞ TORPAQLARIN ETNİK TƏRKİBİ

# ETHNIC COMPOSITION OF THE LANDS SEPARATED FROM ANCIENT AZERBAIJAN

**Firudin RZAYEV**[*]

**XÜLASƏ**

Məqalədə Azərbaycan, ondan qoparılmış şimal Qafqaz, Gürcüstan, uydurma "Ermənistan", Albaniya və Azərbaycan, onun torpağı Naxçıvan ərazisində yaşamış prototürk tayfalarından bəhs olunur. Mövzu indiyədək Azərbaycan və türk alimləri tərəfindən araşdırılmamışdır. Yazıda qədim Qafqazın etnik tərkibi, tayfaların Azərbaycanda və onun əyaləti Naxçıvanda yaşaması dövrünə nəzər salınmışdır. Bu prototürklərin m. ö. VIII-I minilliklər Qafqazın yerli sakinləri olması tarixi faktlarla təsdiq olunmuşdur. Bu ərazidə prototürk tayfalarının yaşaması Herodot, Strabon, Plutarx kimi antik müəlliflərin məlumatları ilə təsdiq olunmuşdur. Burada 50-dən çox tayfa mənbələrə əsasən təyin edilmiş, onlarla bağlı yer adlarının bu günə qədər qalması, onların eynilə qədim Azərbaycan və Naxçıvan ərazisində məskunluğu, adlardakı izlər faktlarla təsdiqlənmişdir.

Tədqiqatda bu ərazilərin yer adlarındakı qədim tayfaların hansı əyalətlərdə, rayonlarda olduğu göstərilmiş, onların linqvistik təhlilləri verilmiş, adların türk dilində olduğu təsdiqlənmişdir. Müqayisəli təhlillərdə bu tayfaların qədim Azərbaycan, onun torpağı Naxçıvan və Qafqazla yanaşı, Türkiyə, Orta Asiya, Uyğur, Sibir və s. türk ərazilərində də yayılmasına dair faktlar göstərilmişdir. Tədqiqat zamanı məqalədə yeni elmi nəticələr əldə edilmişdir.

**Açar sözlər:** *Azərbaycan, Qafqaz, Naxçıvan, uydurma "Gürcüstan, Ermənistan", Albaniya, ümumtürk.*

**ABSTRACT**

The article discusses the Proto-Turkic tribes that inhabited Azerbaijan, the North Caucasus separated from it, Georgia, the fabricated "Armenia", Albania, and Nakhchivan, a land of Azerbaijan. The subject has not been studied by Azerbaijani and Turkish scholars to date. The paper examines the ethnic composition of the ancient Caucasus and the period during which these tribes lived in Azerbaijan and its province, Nakhchivan. Historical facts confirm that these Proto-Turkic tribes were indigenous inhabitants of the Caucasus in the $8^{th}$-$1^{st}$ millennia BC. The presence of Proto-Turkic tribes in this territory is also confirmed by the accounts of ancient authors such as Herodotus, Strabo, and Plutarch. More than 50 tribes have been identified on the basis of historical sources. The survival of place names associated with these tribes to the present day, their settlement in the territory of ancient Azerbaijan and Nakhchivan, and the traces preserved in these names are confirmed by factual evidence.

The study identifies the provinces and regions in whose place names these ancient tribes are reflected, provides their linguistic analysis, and confirms the Turkic origin of the names. Comparative analysis reveals facts demonstrating the spread of these tribes not only in ancient Azerbaijan, Nakhchivan, and the Caucasus, but also in Turkey, Central Asia, Uyghur regions, Siberia, and other Turkic territories. The research has produced new scientific results.

**Keywords:** *Azerbaijan, Caucasus, Nakhchivan, fabricated "Georgia, Armenia", Albania, Pan-Turkic.*

## GİRİŞ

Naxçıvanın da daxil olduğu m. ö. VIII-I minillikləri əhatə edən qədim Qafqazdakı tayfa birlikləri, sön iki yüz il ərzində müxtəlif istiqamətlərdən tədqiq olunaraq, rus siyasəti ilə bu gün də belə

[*]AMEA Naxçıvan Bölməsi, e-mail: firudinrzayev@gmail.com
ORCİD: 0009-0008-3291-791X

sonradan formalaşmış etnik qrupların əcdadları kimi təqdim olunurlar. Buradakı tarixi abidələrin, arxeoloji mədəniyyət nümunələrinin m. ö. minilliklərlə səsləşən tarixi, minlərlə ərazi toponimik adlarındakı dil elementlərinin qaynaqlardakı yeri ərazidə mövcud olan bu gəlmə, kiçik etnosların yaranma tarixindən xeyli əvvəllərə söykənir. Tarix səhnəsinə m. ö. VIII-I minilliklərdə çıxan türk əcdadlarımızın heyrətamiz türk mədəniyyətini yaratdığı tarixi, Qafqaz ərazisində öz qüdrətli dövlətlərini qurduğu, öz izlərini əbədiləşdirdiyi dövrlərlə bağlı mənbələrdə, gəlmə etnik qrupların adı qeydə alınmır.

Yazıyaqədərki dövrdən xeyli əvvəl, uzaq tarixin siyasi və təbii hadisələri ərazidə m. ö. məskun olmuş prototürklərin şifahi şəkildə deyimlərində, yaddaşlarında da yaşamış, bu proses Qafqazda yayılmış, sonralar isə dastan, mif, rəvayət formalarında yazılı məxəzlərə daxil olmuşdur. Bildiyimiz kimi bu da bir danılmaz həqiqətdir ki, hər bir rəvayətin, mifin və əfsanənin bətnində uzaq tarixlərin izi yaşamaqdadır. Qeyd edək ki, bu şifahi ünsürlərin də heç biri rus siyasi oyununda dəstəklənən etnik qruplarda qeydə alınmır. Lakin bu gün bu qruplar istər Azərbaycan məişəti; mətbəxi, geyimi, inancı, musiqi sənəti və s. mədəniyyət nümunələrimizi dünyaya öz adları ilə təqdim etməyə çalışırlar. Bəs əsl həqiqətdə Qafqazın etnik tərkibi hansı tayfalardan ibarət olmuş, bu mədəniyyət nümunələrini kimlər yaratmışdır?

Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən olan, Nuh tufanı ilə bağlı adı qaynaqlarda çəkilən qədim Naxçıvan diyarı bəşər nəslinin ilk beşiklərindən biri hesab olunmaqla, Nuhun saldığı ilk şəhərlərdən biri kimi oxuculara təqdim edilməklə, tədqiqatlarda Nuh övladlarının buradan bütün Qafqaza yayıldığı göstərilmişdir [Rzayev, 2013: 16]. Təbii ki, bu fikirlər geniş tədqiqat tələb edən problem məsələlərdir ki, günümüzdə də bu problemlərin bəzi istiqamətlərdən yenidən tədqiqi aktual tədqiqat obyekti olaraq qalmaqdadır.

Qədim Qafqaz və onun bir parçası olan Naxçıvan ərazisi m. ö. VI-I əsrlər əski səyyahlar Herodot, Strabon, Plutarx, İ.Flavi, II əsr K.Ptolemey, VIII-XI əsrlər Y.Həməvi, Ə.Bəlazuri kimi bir çox tarixçilər tərəfindən onların əsərlərində xatırlanmışdır [Rzayev, 2017: 45-47]. Çar Rusiyası və Sovetlər birliyi dövründə bütün bu ərazilər rus, gürcü, erməni arxeoloqları tərəfindən arxeoloji istiqamətdə tədqiq olunmuşdur. Lakin təəssüflə qeyd edək ki, son iki yüz il ərzində beynəlxalq əhəmiyyətli elmi nəticələrlə təsdiq olunan Qafqaz, o cümlədən də Naxçıvan mədəniyyətinin tarixi saxtalaşdırılmış, mədəniyyət abidələrimiz, arxeoloji mədəniyyət nümunələrimiz vəhşicəsinə talanmış, əldə olunan elmi nəticələr isə siyasətlərə uyğun xristian faktoruna xidmət etmişdir. Biz Qafqazda və onun bir parçası olan Naxçıvan ərazilərində bütün bu mədəniyyətləri yaradan qədim dövr dövlət və tayfa birliklərinə ayrı-ayrılıqda nəzər salmaq istərdik.

**QƏDİM NAXÇIVAN-NAXƏR ÖLKƏSİ TORPAQLARIMIZIN ETNİK TƏRKİBİ**

Bu ərazi Strabon, İ.Flavi, K.Ptolemey, Plutarx, sonrakı dövrlərdə Yaqut-əl-Həməvi, kimi yüzlərlə qədim tarixçilər, eləcə də İ.Q.Əliyev, İ.M.Dyakonov, Q.Qeybullayev kimi xeyli sayda müasir tədqiqatçılar tərəfindən araşdırılmış, əyalət kimi Aratta, Manna, Midiya və Atropatena dövlətlərinin tərkibində göstərilməklə bu istiqamətdə maraqlı elmi fikirlər irəli sürülmüşdür [Дьяконов, 1956: 24-31; Qeybullayev, 1994: 66-78]. Lakin sovet siyasətinə xidmət edən İ.Q.Əliyev, Q.A.Melikişvili, İ.M.Dyakonovun yazılarında bir qrup tayfa "farsmənşəli", "erməniмənşəli", "anlaşılmayan dilli" tayfalar kimi göstərilmişdir [Rzayev, 2013: 34-48; Rzayev, 2017, s. 85-94]. Bəs bu ərazinin etnik tərkibi kimlərdən ibarət olmuş və hazırkı torpaqların tarixi sakinləri hansı tayfa birliklərindən formalaşmışdır?

**QƏDİM NAXÇIVANIN İRƏVAN VƏ ZƏNGƏZUR ƏRAZİLƏRİ TAYFALARI**

Bildiyimiz kimi, İrəvan və Zəngəzur əraziləri qədim Naxçıvan-Naxər ölkəsi əraziləri olmaqla tarixi türk torpaqları olmuş, Səfəvilər hakimiyyəti dağıldıqdan sonra, 1590-cı ildən 1840-cı illərə kimi İrəvan xanlığına çevrilmiş, İrəvan və Karbi (cəmi 2) nahiyələrinə ayrılmışdır [İrəvan əyalətinin icmal

dəftəri, 1996, s. 164-183]. Təkcə Naxər-Naxçıvan qəzası-Naxçıvana aid nahiyələrdə m. ö. VIII-I minillikdən tarix səhnəsində görünən **As, Naxər, Türükkü, Kuti, Lulubi, Hürrü, Kassi** kimi 15 türk boylarının və onların **Kəngər, Sak, Maq, Skif, Kimmer, Xaçmataq** kimi 23 varislərinin adını yaşadan 645 məntəqə adı – etnooykonim mövöcud olmuşdur ki, onlar türk – Azərbaycan dilindədir [Rzayev, 2013: 53-435; Rzayev, 2017: 95-467]. Tarixi m. ö. II minilliyin əvvəllərinə söykənən eramızın XVI əsrlərinədək isə ərazilərimizdə **Sak, Maq, Arizant, Bus, Kimmer, Oğuz, Hun, Skif, Bolqarl, Xaçmataq, Sarmat, Subar, Şirak** və s. kimi yerli türk tayfaları Aratta, Mitan, Manna, Midiya, Albaniya, Atropatena türk dövlətlərində aparıcı güc olmuşlar. Bu ərazidə adı keçən türk boylarının adlarından formalaşan yüzlərlə məntəqə mövcud olmaqla, mənbələrdə yer alır [İrəvan əyalətinin icmal dəftəri, 1996: 163-170, 180-183]. Bu türk boylarının adlarını daşıyan məntəqə adları 1590-1926-cı illərin arxiv sənədləri ilə yanaşı yazılı mənbələrdə də [Naxçıvan sancağının müfəssəl dəftəri, 1997: 17] bu günə qədər təkrarlanmaqdadır. Bütün bunlar, m. ö. II minillikdə Assur, Hett, Axiyava, Urartu və s. dövlətlərin yazılı mənbələrində də qeydə alınmışdır [Rzayev, 2013: 21-30; Rzayev, 2017: 43-53].

Əgər diqqət etsək, Midiya tarixi və buradakı **maq, bus, arizant, struxat, budi, partagen** tayfa adları haqqında, həm Herodotun yazılarında məlumat verilir [Геродот, 1972: I, 101], həm də onların dili, mifik düşüncəsi-inancı, məişətləri haqqında xeyli məlumatlara İ.M.Dyakonov, İ.Q.Əliyev E.A.Qrantovskinin yazılarında rast gəlirik. Düzdür, burada “qafqazmənşəli”, “iranmənşəli” kimi yanlış konsepsiyalar yer alsa da, bəzən bir qrup əhəmiyyətli tarixi faktlarla da rastlaşırıq [Алиев, 1960: 70-72, 79-85; Дьяконов, 1956: 87].

L.N.Qumilyov və M.İ.Artamonovun yazılarında türrük, şirak tayfalarının Qafqazdakı əraziləri və dili [Артамонов, 1974: 114], görkəmli alim Q.Qeybullayevin tədqiqatlarında isə, xeyli sayda türk tayfa adları, onların dili və inancları ilə bağlı mənalar geniş araşdırılmışdır [Qeybullayev, 1994: 26-30]. Bu istiqamətdə türk araşdırıcısı F.Kırzıoğlu tərəfindən Kars ərazisində yaşamış **kas, oğuz, qıpçaq** tayfaları onların məişət və dilləri geniş tədqiq edilmiş, onun tədqiqatlarında xeyli sayda yeni faktlar ortalığa qoyulmuşdur [Kırzıoğlu, 1953: 37-39]. Xüsusi qeyd edək ki, biz Qafqaz və Naxçıvan ərazisində məskun olmuş Kas tayfa adını eyni zamanda uyğurlarda altı tayfa adında görürük [Артамонов, 1974: 114]. XVIII əsrdə Sibirin Udin mahalında iki (Kara-Kas, Sarıq-Kas) tayfa adlarında, Cənubi Azərbaycanda isə, onlarla adda təkrarlandığını da görürük [Gültekin, 2001: 170-175].

Biz m. ö. VII əsrdə “Avesta”da adı çəkilən, lakin tədqiqatlarla m. ö. II minilliyə aidliyi sübut olunan Naxçıvan ərazisindəki iki nahiyədə **Sak** türklərinin adın görürük [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 164-183; Naxçıvan sancağının müfəssəl dəftəri, 1997: 11-18; Rzayev, 2013: 67-78]. Bu tayfa adı eynilə Cənubi Azərbaycanın yüzlərlə məntəqə adları – etnooykonimlərində də qalmaqdadır [Gültekin, 2001, s. 18-19]. Qazaxlarda **saqa**, özbəklərdə **sakay**, qırğızlarda **saka**, türkmənlərdə **saklar** qeyd-şərtsiz olaraq türk saklardır ki, bunlar Azərbaycan və Naxər-Naxçıvan ölkəsi ərazilərindən, o cümlədən də qafqazlardan şimala doğru yayılmışlar. Qədim Sak türkləri haqqında belə məlumatlara L.M.Levina, T.A.Trofimov, E.E.Kuzmina, B.Ögəl və E.Esinin yazılarında da rast gəlirik ki, bu tədqiqatlarda sak-saka boylarının tarixi, ərazisi və məişəti müxtəlif istiqamətlərdən araşdırılmışdır [Rzayev, 2017: 139-180]. Eyni problem K.Göde və R.Özdəkin əsərlərində də geniş tədqiq edilmiş və burada sakların dili, tarixi ərazilərinə dair yeni elmi faktlar ortaya çıxarılmışdır [Özdek, 1992: 49, 85, 129] ki, burada sakların yayım ərazilərinin də əsasən türklərə aid olduğu birmənalı təsdiq olunur.

N.Y.Marr öz tədqiqatlarında qeyd edirdi ki, **Ermənistanın şərq əyalətlərinin ən qədim sakinləri Sak türkləri olmuşdur** [Марр, 1992: 195]. Eyni fikri erməni tarixçisi Y.A.Manandyan da söyləmişdir. Onlar kimmerləri də bura əlavə edərək bu fikrin təsirini bir qədər yumşaltmaq istəmiş, gələcəkdə onları “erməni tayfaları” kimi vermək planı ilə **Ermənistanın şərqinin bir hissəsinin kimmerlərə və saklara məxsusluğunu,** sakların bu əraziyə gəlməklə kimmerləri sıxışdırdıqlarını Ağrı (yazıda Ararat) vadisi və Urmiya hövzələrinə yayıldıqlarını qeyd etmişlər [Манандян, 1954: 54]. Lakin biz bu fikrin tam doğruluğunu, bu ərazilərin bütünlükdə saklara aidliyini, onların göstərilən

tarixdən 2 min il əvvəl bu ərazilərdə məskunluğunu bir çox mənbələrdəki məlumatlarla, eləcə də Strabonun yazılarındakı tarixi faktlarla da təsdiq olunduğunu görürük [Адонц, 1971: 188-196; Алиев, 1960: 56, 93, XI; Qeybullayev, 1994: 90].

İndiki uydurma "Ermənistan" ərazisində **m. ö. VII əsrə aid** türk **manqlarla** bağlı 25, **arizantlarla** aid 13, **buslara** aid 16, **kimmerlərə** aid 5, **aslara** aid 12 kənd, **m. ö. IV əsrə aid şiraklarla** bağlı 81, **m. ö. ən azı VIII əsrə aid oğuzlar** və onların qolları **Kəngər, Qarbay, Bulla, Tərkə, Bakır** və s. türk tayfaları ilə bağlı 350-dən yuxarı məntəqə adı qeydə alınır [İrəvan əyalətinin icmal dəftəri, 1996: 159-183]. Ərazidə qədim köklərimizdən olan **hun, xəzər, qazax, peçeneq, savir, xaçmataq** və s. türk tayfalarının yaratdığı yüzlərlə yer adı da mövcuddur. Bu tayfalar onların, dil qrupları, yayım arealları və s. haqqında zəngin məlumatlara antik müəlliflərdən Herodot və Plutarxın əsərlərində də rast gəlirik [Геродот, 1972, I, 53, 93; Плутарх, 1990, XI, s. 63, XXVI, s. 137]. Qeyd edək ki, sovetlər dönəmində o dövr siyasətinin müasirləri olan N.A.Baskakov, E.I.Sidorov, A.G.Sumbatzadənin də yazılarında bəzi tarixi faktlar göstərilsə də, bu tarix bir qədər səthi araşdırılmışdır. Bu tayfalar içərisində **xəzər, savir** kimi boylar əsasən "iranmənşəli", "anlaşılmayan" dillər kimi türklərdən uzaqlaşdırılmışdır [Баскаков, 1984: 6-13; Сидоров, 1984: 39-44]. Bununla bərabər bu fikirlərə elmi təkziblərə, bu tayfaların türklüyü və miflərinə, ərazilərinə dair yeni faktlara biz İ.Əliyev M.Seyidov, K.Əliyev və başqa tədqiqatçıların yazılarında da rast gəlirik [Алиев, 1992: 84, 85; Алиев, 1960: 25-53; Seyidov, 1989: 50, 94-101].

Türk **manqlar** hazırda tunqus-mancurların adında **manq,** Altayda **mansu,** qırğızlarda **monquş**, Tuvada **menqi** şəklində, Ön, Orta, Kiçik Asiyanı yaradan qüdrətli **asların izi** uyğurlarda Asan, Asantigin, Esen-buqa, Bulqar xanı Asan [Məmmədov, 1977: 37, 109] albanlarda Asan Calal, Asak, Asirak şəxs adlarında, Aşqabad, Astabad, Aras-Araz kimi toponimik adlarda bu gün də mövcuddur. **Şiraklar** isə M.Seyidov, Q.Qeybullayev, V.Vinoqradov və bu kimi tədqiqatçıların əsərlərində geniş tədqiq olunmaqla, onların bir türk tayfası olması tarixi və dil faktları ilə sübut olunmuşdur [Seyidov, 1989: 50; Виноградов, 1965: 108]. Biz yüzlərlə yer adında, Şor, Saqay, Uyğur və bütün türk dillərində **şir, sır, çır, çar, çırat** komponentlərinin bu gün də belə "işıq", "şüa" mənalarında qaldığını görürük [Радлов, 1893: 103] ki, bu Şar-günəş tanrısı adından yaranmış və Şir+ak-"Uca işıq" tayfa adında da eyni mənada qaldığının şahidi oluruq.

**Oğuz boyları** da geniş arealda Qafqaz və Naxçıvanın etnogenezində iştirak etmiş və F.Rəşidəddin, Əbül-Qazi, eləcə də Uyğur variantının "Oğuznamə" əsərlərində yer almaqla V.V.Radlov, V.V.Bartold, A.M.Şerbak, A.N.Orkun, E.Kemal, M.F.Köprülü, S.Əlizadə, B.Ögəl kimi tədqiqatçılar tərəfindən araşdırılmış türk olmaları birmənalı qarşılanmışdır. Biz aşağıda bu haqda geniş bəhs edəcəyik. Plutarx isə, "Lukkul" başlığında ərazini **Asiya ölkəsi** adlandırır ki, bu da qədim **As türk** tayfalarının adını daşıyırdı [Плутарх, 1990: 127-128].

Hazırkı "Ermənistan" ərazisinin keçmiş və müasir adları toponimik adları da türk tayfa adlarındandır. M. ö. VIII əsrdə ərazinin şimal qərbində **kimmerlərlə** bağlı Qamrik əyaləti [Дьяконов, 1956: 205] XX əsrin sonlarına qədər isə Mola Kəmər, Gözlü Kəmər, Qəmərli [Qeybullayev, 1994: 79] məntəqələri var idi. Bu dövrdə **Sak türkləri** və **kimmer-sakların** üç birləşməsi ərazinin cənubu, mərkəzi və şərqində Sisakan, Saka, Sakasin əyalətləri və hazırkı Zəngəzur, Göyçə, Erevan ərazilərində yerləşirdi. XX əsrin sonuna qədər İrəvan əyalətinin Karbi, Vedi, Aralıq, Ağsaqlı nahiyələrində azərbaycanlılardan ibarət Sak türk tayfa adı ilə 43 məntəqə adı mövcud idi [İrəvan əyalətinin icmal dəftəri, 1996: 159-162; Rzayev, 2013: 98-106] və buradan xeyli skif-oğuz mədəniyyəti nümunələri üzə çıxarılmışdır [Абибулаев, 1982: 50-53; Манандян, 1951: 225, 231].

Biz Q.Qeybullayevin yazılarında m. ö. VIII əsr **Şirak** türklərini Sevan ərazisindən cənub-qərbdə görürük və onlar, Axuryan çayı vadilərində, Vənənd və Ararat ərazilərində yaşayırlar. Burada Göyçə (Sevan) gölündən qərbdə də I əsrdən XX əsrin sonuna qədər **Şirak Şoragel** əyalətlərini və şiraklarla bağlı 56 kənd, 3 nahiyə olduğu təsdiq edilir. Türk **qarqarlar** isə ərazinin cənub-şərqində m. ö. VII əsrdən, Qoqrena əyalətində və Qarqar, Herher, Xarxar məntəqələrində yerli sakinlər olaraq

göstərilir. Müəllif, **Pasian-peçeneqləri** m. ö. VII əsrdə ərazinin cənub-qərbində Göyçədən axan Zəngiçay axarında Basiana ölkəsi və Beçni, Beçini, Parçi və s. məntəqələrdə göstərir [Qeybullayev, 1994: 106-111]. Mənbələr m. ö. IV əsr **Kol** türkləri və **hunlar, xəzərlər** onların **kəbər, bozal, kulas, tərnə, tərkə** qolları ərazinin şimalı, mərkəzi, qərbi, cənub və cənub-şərqində **Kol, Basil** ölkəsi, **Taron** əyalətlərində Kelar, Ərkul, Kul, Xəzərku, Kulas (İrəvan, Vedi, Karbi və s. nahiyələrində) kimi xeyli məntəqələrdə XX əsrin sonuna qədər yaşamışlar [Алиев, 1992: 43; Qeybullayev, 1994, s. 53-59].

**Şirak əyaləti** uydurma Ermənistanın Vənənd və Ararat əyalətlərinin arasında yerləşirdi və əyalət m. ö. VI əsrdən də qabaq türk Şirak tayfalarına aid idi [Адонц, 1971: 225]. Şirak soyu, uydurma Ermənistanda XX əsrin əvvəllərinə kimi adları və əhalisi azərbaycanlılardan ibarət olan Şürəgəl nahiyəsinin 32 məntəqəsində yaşayırdılar [İrəvan əyalətinin icmal dəftəri, 1996: 124-126]. Burada m. ö. II əsrdən xeyli əvvəl **vənəndlər** və türk **bulqarlar** bir əyalət olaraq mövcud idi [Seyidov, 1989: 324-325].

Ərazinin mərkəzi, cənubunda və qərbində m. ö. VIII-VII əsrdən də əvvəl **kimmer, skif, sak, arizant, bus, türükkü, maq, barsil, subar** türkləri, m. ö. VI-III əsrlərdən ötən əsrin sonuna qədər isə, **quqar, şirak, hun, pasian, bulqar, oğuz, kəngər, peçeneq, aran, katak, vənənd, sadak, kul, gorus, çor, cinli, xəzər** və onun qolları **bozal, kulas, tərnə, tərkə, kuvyar** tayfaları yaşamışlar. Onların adları XX əsrin 90-cı illərinədək Qərbi Azərbaycanın (ermənistanın) məntəqə adlarında qalırdı [Адонц, 1971: 31; Дьяконов, 1956: 240; Kırzıoğlu, 1953: 329]. Ermənistan ərazisinin qədim sakinlərindən biri də türk **kataklar** idi. Kotayk mahalı Zəngibasar mahalının ilkin adlarından olmuşdur [Адонц, 1971: 302]. Qıpçaq türklərinə aid olan bu tayfalar **özbək, qırğız, başqırd, qazax, noqay, qaqauz** və b. türk boyları arasında da yayılmışlar [Rzayev, 2017: 435-466].

Ərazidəki bütün tayfalar Bütöv Azərbaycan, Türkiyə, Orta Asiya, Sibir, Altay, Krım, Volqaboyu, Kərkük və s. türk ellərinin yer və tayfa adlarında geniş təkrarlanmaqdadır [Малый атлас мира, 1985: 24-25, 36, 56, 58, 60-61]. Qərb Azərbaycanın – uydurma "Ermənistanın" etnik tərkibi m. ö. IV minillikdən-XX əsrin sonuna qədər bu şəkildə idi.

## QƏDİM AZƏRBAYCAN ƏRAZİSİNDƏ QAFQAZ ALBANİYASININ ETNİK TƏRKİBİ

Bu gün ən azı 6 min illik dövlətçilik tariximizi yaşadan Vətən deyib qürur duyduğumuz Azərbaycanın şimalında m. ö. VI əsrdən mövcud olan Alban dövlətinin etnik tərkibi bəzi kiçik etnik qruplar istisna olunmaqla, bütövlükdə türklərdən ibarət olmuşdur. Ərazidə **alban, sak, maq, maskut, kaspi, uti, quqar, aran** kimi türk tayfaları aparıcı güc və vilayətlərə sahib olmuşlar [Алиев, 1992: 52-60, 74]. Yunan səyyahı Strabonun "Coğrafiya" əsərində **alban, masqut, aran, sak, kaspi, şirak, çul, xaçmataq, quqar, abant, satak, ügər, lek, uti, qarqar, silbi** və s. 26 türk tayfalarının adları qeyd olunur. Bu tayfa adları da Azərbaycan, Türkiyə, Orta Asiya türkləri və Volqaboyu, Ural ərazilərində geniş yayılmış tayfalardır. Burada özünü "alban" adlandıran türk tayfalarının bütöv Alban ərazilərini əhatə etdiyi, bir qisminin isə Atropatena və Midiya dağlarında yaşadığı, kiçik etnik qrupların da özlərini "alban" adlandırdıqları göstərilir [Страбон, 1964, XI, 5, 1, XI, 7, 1, XI, 8, 8]. Hələ m. ö. minilliklərdən günümüzə qədər bütün türk xalqları içərisində **alban, alvan, alpan** boyları adlarının keçməsi, albanların bir türk boyu olduğunu bir daha təsdiq edir. Bu fikir IV-VIII əsrlər Alban müəllifləri Favst Buzənd, Xorenli, Parabski, Sebos, Şirakasi, Qevond (bunlar erməni hesab edilmişlər) və b. məlumatlarında da təsdiq olunur. **Yeri gəlmişkən qeyd edək ki, bu tarixçilərin milliyətcə erməni olması tarixi faktlarla təsdiq olunmur.** Biz bir çox yazılarımızda buna yetərli sübutlar göstərmişik. Bundan başqa, "VII əsrin **Erməni coğrafiyası əsərində" hun, maskut, sarmat, savir, kaspi, şarvan, xaçmataq, bakan** kimi xeyli türk tayfa adları da qeyd olunur [Алиев, 1992: 35-40] ki, bu tayfaların, hamısı m. ö. II-I minilliklər və ondan sonrakı dövrlərdə Naxçıvan ərazilərində yerli sakinlər olmuş türk tayfalarıdır. Sakların bütün türk ərazilərində yayılması prosesi eynilə bu türk tayfalarının yayım prosesində də təkrarlanmışdır. İndi isə bu və digər boyların Alban ərazilərində yayılma arealına diqqət yetirək.

Strabon Albaniyada sak, alban, kaspi tayfalarının şimal, şərq və mərkəzə doğru yerləşdiyini [Страбон, 1964, XI, 4, 6], Favst Buzənd isə, ərazinin şimali-şərqində Maskut çarlığının olduğunu və onun çarı Sanasenin **hun, qarqar, maskut, uti, silbi, xaçmataq, ijemax qat, qular, aqvan, əgərsvan, balasakan** və s. tayfalardan ordu topladığını göstərir [История Агван Моисея Каганватци, 1966, III, 7]. Əgər miladdan sonra IV əsrlərdə bu türk boyları Albaniyanın yarısını əhatə edirdisə, şübhəsiz ki, m. ö. IV əsrlərdə onun təşəkkülündə də onların fəal iştirakı olmuşdur.

M. ö. IV əsrdən, ötən eranın son dövrlərinədək Albaniyanın şimal-qərbində Kambisena vilayətinin Şirak düzənliyində **alban, lupin/lipin, skif, sak, savir, silbi** türkləri [Алиев, 1992: 73, 127, 154], **Acəri-As əri** türk vilayətində **as və saklar,** Kabala-Qəbələ vilayətində (Şəki və Çola vilayətləri arasında) isə, **silbi, xaçmataq, ijemax qat, qular, aqvan xəzər, savir, qarqar, bulqar, barsil tayfaları** yaşayırdılar [Məmmədova, 1993: 86]. Elə həmin dövrlərdə Şəki vilayətində (Albaniyanın şimal qərbi) **alban, uti, skif, sak** tayfaları, Paytarkan-Balasaqun vilayətində isə (müasir Azərbaycanın cənub-şərqində) **kaspi, alban, hun, xəzər, asnianlar/aynianla**r, **akasir, balas** və s. türklər yaşayırdılar [Адонц, 1971: 420-423; Геродот, 1972, III, 7, V, 14]. Uti vilayəti m. ö. IV-V əsrlərdə Kür çayının şimali-qərbində yerləşməklə, burada **Aran** nəslindən olan **uti, qarqar, savdey, sak, hunlar**, hazırkı Gürcüstan və Ermənistan sərhədləri boyunca isə, **kəngər** tayfaları məskun idi.

Albaniyanın digər iri vilayətlərindən biri də Ərsak vilayəti idi. Mənbələrə Artsax və Arsak kimi düşən bu vilayətin etnik tərkibini m. ö. IV əsrdən **sak, hun, xəzər, qarqar, uti və basillər** təşkil edirdi. Albaniyanın daha iri bir tərkib hissəsi **Sünik (əslində si sakları)** adlanırdı və 12 vilayətdən ibarət olan (F.R.) bu ərazi sakların nəzarətində idi. Albaniyanın cənubu, Arsak vilayətinin şimalını əhatə edən, hərbi, siyasi və iqtisadi qüdrətə malik bu ərazi bütövlükdə **sak, türkləri, xəzərlər, uti, savir, girdman** və s. tayfalar yaşayırdılar. Tarixi məlumatlardan aydın göründüyü kimi Albaniya ərazisi bütövlükdə qədim Azərbaycanın türk tayfa birliklərindən təşkil olunmuş, onların əzəli torpaqları idi. Eramızın I əsrində arşakidlərin, VI-VIII əsrlər mehranilərin sülaləsi tərəfindən idarə olunan ərazinin etnik tərkibi dəyişilməmiş, XIII əsrin sonunda burada formalaşan Alban Xaçın knyazlığı monqolların hücumları ilə süquta yetmişdir [Məmmədova, 1993: 95; Страбон, XI, 71].

Bununla bərabər m. ö. VI əsrdən eramızın XIII əsrinədək Albaniyanın etnik tərkibi Strabon, Ptolemey və digərlərinin məlumatlarında əsasən m. ö. IV, eramızın XIII əsrlərinə qədər onun şimalından cənuba doğru 5 vilayət və 6 əyaləti özündə birləşdirirdi. Bu vilayət və əyalətlərdə **as, sak, alban, gel, silbi, leg, lipin, kaspi, hun, qarqar, maskut, uti, xaçmataq, ijemax, qat, qular, aqvan** (deməli Albaniyada həm alban, həm də aqvan adlı tayfalar mövcud idi – F.R.), **əgərsvan, balasakan, xəzər, savir, bulqar, barsil, skif, akasir, balas, aynianlar, savdey, girdman** və s. tayfalar qeydə alınırdı. Bu da Strabonun 26 tayfa fonemini təkzib edir (F.R.). Biz bunun ruslar tərəfindən tərcümə zamanı təhrif olunduğunu düşünürük. Çünki təkcə türk **xəzərlərin bizal, kəbr, kulas, kuvyar, tərkə, tərnə**, və s. qolları müasir Bütöv Azərbaycan toponimik sistemində Buzqov, Bizlan, Bozlu, Bozalqanlı, Bizəyir, Kəbər, Zeyzit, Kəbirli, Kəvər, Külüs, Külaslı, Kulaza, Tarəkən, Tarəçi, Dərəke, Dərk, Tərkəş, Turna, Tarun, Dərkə və s. yüzlərlə adlarda yaşamaqdadır [Azərbaycan SSR-in qısa toponimlər lüğəti, 1986: 19-20, 57, 61, 91; Gültekin, 2001: 170, 175]. Qeyd edək ki, Ordubad rayonunda sonuncu **Dərkə** adı **Dər+kənd** şəklində "kənd" sözünün əlavəsi ilə təhrif olunub və bu ad Dorka-"Şöhrətli Dor" tayfasının adındandır (F.R.). Eyni hal digər tayfa adlarında da müşahidə edilir. Bütün bu tayfaların bir qismi Tenqrianlıqda-Tanrıçılıqda olan (m.ö. VII əsr), sonra xristian adlanıb (bu dini də türklər yayıb [Rzayev, 2017: 141-146], islamı qəbul etmiş türklərdir. Bütün faktlara diqqət etsək, Alban dövləti Azərbaycan türklərindən ibarət Azərbaycan dövləti olmuşdur.

## ƏSKİ ƏRAZİMİZDƏ YARANMIŞ "GÜRCÜSTAN" VƏ BURADAKI TÜRKLƏR

Tarixi qaynaqlar Gürcüstan ərazisinin etnik tərkibində **kimmer** türk boylarının adını çəkir, onların m. ö. IX əsrlərdən Qafqaz və Şimali Qafqazın ətrafında məskunlaşdığını, Assur yazılarında isə

Gürcüstanın qərbində kimmerlərlə bağlı Qamrik əyaləti olduğu göstərilir [Дьяконов, 1956: 205]. Çox qəribədir ki, bütün türk xalqlarında əsas güc olan bəzi türk boylarını gürcü araşdırıcıları gürcü hesab etməklə, öz tarixlərini qədimləşdirməyə cəhd edirlər. Lakin tarixən bura Azərbaycan torpağı idi və 1906-cı ildə Metx qalası yanında gürcü kiçik bir knyazlıq idi. Belə tayfalardan biri türk Quqarlardır. Yunan səyyahı Strabonun, fransız tarixçisi Sen-Martinin, tarixçilər A.İ.Qrekin, K.V.Treverin, Q.A.Melikişvili və başqalarının əsərlərində quqarlar geniş araşdırılmış türk tayfalarıdır [Rzayev, 2013: 21-26].

Hələ m. ö. I əsrlər **Gürcüstanın şərqində quqarların yaşadığı,** eramızın IV-V əsrlərində burada Quqarak əyalətinin mövcud olması ərazidə quqarların geniş yayıldığının sübutudur. Sen-Mertin Quqarak əyalətinin Gürcüstanın Axalkalak, Tumanis, indiki Borçalı ərazilərini əhatə etdiyini yazırdı [Rzayev, 2017: 35-37]. Bəzi tədqiqatlarda daha bir türk tayfası **cinlilər gürcülərin "ulu" babaları** kimi təqdim olunur. **Cinli** tayfasını erməni və gürcü mənbələri müxtəlif yöndən tədqiq etmişlər. Ermənilər onların Çindən gəldiyini, gürcülər isə onların türk olduqlarını söyləyirlər. Məsələ burasındadır ki, **cinlilərin Mamikonlar sülaləsi** gürcü və erməni dövlətlərində aparıcı güc olmuş, Ermənistana Artavaz, Vasak, Samuel, Vaçe, Vahan, Muşel kimi sərkərdələr nəsli bəxş etmiş, onlara əyilməmiş və özlərini ermənilərdən üstün tutmuşlar. F.Buzəndin kitabında **Manvel Mamikon ermənilərə deyir: "Biz sizin qullarınız deyilik və hətta sizdən yüksəyik. Qardaş qanı tökməmək üçün biz vətəndən ayrılıb burada məskunlaşmışıq"**. M. ö. II əsrdən Gürcüstanın Orbet qalasında məskunlaşan **cinli tayfaları** sonralar **Orbelilər** kimi tanınmış, **gürcülər üçün Orbeli** nəslinə, Ermənistana köçdükdən sonra **Orbelyan** soyuna çevrilmişlər [Qeybullayev, 1992: 122]. Qəribə məntiqdir. Bir türk boyu iki ölkəni idarə edir və hər ölkə onu öz qədim əcdadları sayırlar. Araşdırmamız göstərir ki, onlar sak tayfalarının bir qolu idi (F.R.). Belə ki, nə qədər adları dəyişdirilsə də, hələ bu gün belə Gürcüstanda Sak türkləri ilə bağlı **Saqar**+eco (burada eco gürcü dilində şəkilçidir – F.R), **Sak/saç**+xere kimi məntəqə adları mövcuddur. Bu fikrimizi daha bir amil təsdiq etməkdədir. **Sisakanın XIII əsrdə axırıncı hakimi Stepan Orbelian öz nəsillərini cinli sayaraq Gürcüstanla bağlasa da, əsasən Albaniya və Atropatenaya aid olmuş, bəzən isə 12 əyalətlə müstəqil sak ölkəsi** kimi tanınmışlar [Адонц, 1971: 420-423; Алиев, 1992: 189-195; Буниятов, 1965: 141]. Bir çox tədqiqatçılar, **Sünik** və **Artsaxın** sak türklərinin dilində danışdıqlarını qeyd edir. Bu dövrdə Gürcüstanı bütövlükdə Sünik-sak knyazları idarə edirdilər [Rzayev, 2017: 139-168]. **Gürcüstan torpaqlarının cənub-şərq hissələrində xəzərlər və saklar** yaşayır və onların idarəçiliyi də **Xəzər** və **Sak** türklərinin əlində idi. Dediyimiz kimi, Gürcüstanın Azərbaycanla sərhəd bölgəsinə yaxın ərazilərində saklarla bağlı Siteli-Skaro (Sakaro), Saqar+eco, Sak/saç+xere, Ziqdudi-Sak+ti, Tbilisidən şimala doğru kaslarla bağlı Kaspi, Kazbeqi, Xaşuri-Kasur kimi məntəqələr qədim türk boylarına aid idi [Малый атлас мира, 1985, s. 52-53].

Gürcüstanın keçmiş Duşeti (Tus+at+i-"Tus yurdu" – F.R.) qəzasında Corci məntəqəsi və ona yaxın məntəqələrdə **Çor türkləri** yaşayırdılar [Qeybullayev, 1992 s. 113]. Hazırda burada **qıpçaqlarla** bağlı **Duşeti** qəsəbə adı, **Sadak** türkləri ilə bağlı **Sadakuni, Sadko, Salaxlı** kəndləri vardır [Малый атлас мира, 1985: 52-53, 113-118]. Gürcüstanda m.ö. VII əsrdən Pasian tayfaları məskun idi. Əgər xatırlasaq, bulqarlar məhz **Pasian** əyalətinə m.ö. IV və II əsrlərdə, iki mərhələdə köçmüşlər [Kırzıoğlu, 1953: 86, 283]. Burada peseneq-pasianlarla bağlı **Pasan**/Beçən+auri (-auri şəkilçi), **Pisunda** (Söz "pasianların verdiyi" mənasında təmiz türk dilindədir – F.R.) qəsəbə adlarına rast gəlirik [Малый атлас мира, 1985: 52-53].

Gürcüstanın hazırkı xəritəsində Kol türkləri ilə bağlı Qali (Azərbaycanda Qala çayı, Qalkyiə dağ, Qala qəsəbə, Gal Culfa rayonunda kənd və s.), Hun-hunqarlarla bağlı İnquri çayı, Subarlarla bağlı Cabarı/subarı, Subi türkləri ilə bağlı Sabuçu və s. adında yüzlərlə məntəqə qalmaqdadır [Малый атлас мира, 1985: 52-53]. Əgər 1941-1945-ci illərdə Gürcüstandan türklərin boşaldılma siyasi prosesini yadımıza salsaq, hazırda burada 1 milyona yaxın türkün yaşamasını da nəzərə alsaq, eləcə də qədim **kas, sak, bulqar, subar, skif, kimmer, quqar, cinli, kaspi, xəzər, pasian, qıpçaq, saadak, peçeneq, hun** və s. türk tayfalarının yayım arealına diqqət yetirsək, türk boylarının bütün ərazini

əhatə etdiyi danılmazdır. Bir daha qeyd edək ki, eyni tayfalar qədim Naxçıvan ərazisinin yerli-aborigen sakinləri idi və bu bir türk tayfa ittifaqı olmuşdur.

**NƏTİCƏ**

Araşdırmada istinad olunan mənbə və faktlara söykənməklə nəticə olaraq qətiyyətlə demək olar ki, m. ö. III-II minilliklərdən günümüzə qədər bu türk tayfaları Naxçıvanla bərabər göstərilən hər üç dövlətin, eləcə də Şimali Qafqazın tarixi təşəkkülündə fəal iştirakçı olmuş, yerli-aborigen sakinlər olmaqla, ərazilər bu qədim türk tayfalarının hakimiyyəti ilə idarə edilmişdir. Məhz bunun nəticəsi idi ki, ümum Qafqazın, o cümlədən də gürcü və ermənilərin Qafqazda ortaq dili türk dili olmuş və bu XX əsrin 40-50-ci illərinədək davam etmişdir. Yəqin ki, rus, fransız və digər səyyah, şair və məmurların "Qafqazda yaşayan xalqlar üçün türk Azərbaycan dili ümumi dil hesab olunur" ifadəsi təsadüfi deyil, ən azı 5 min il ərzində türk birliklərinin hakimiyyəti altında qalan azsaylı xalqların zərurətdən doğan dil mənimsəmə tarixi prosesi olmuşdur.

Bizim fikrimizcə, Qafqaz regionunda etnik məsələ antik və qaynaq məlumatlarına istinadən yenidən, ətraflı tədqiq olunmalı, türk tariximizə zorla sıranmış uydurma "Ermənistan", "Gürcüstan" kimi yamaqlar sökülüb atılmalıdır.

## ƏDƏBİYYAT

Абибулаев, О.А. (1982). *Энеолит и бронза на территории Нахичеванской АССР*. Элм.

Адонц, Н.Г. (1971). *Армения в эпоху Юстиниана*. Изд. Ереванского Университета.

Алиев, К.Г. (1992). *Античная, Кавказская Албания*. Азернешр.

Алиев, И.Г. (1960). *История Мидии*. Элм.

Артамонов, М.И. (1974). *Киммерийцы и скифы*. Ленинградский университет

*Azərbaycan SSR-in qısa toponimler lüğəti*. (1986). ASE Baş redaksiyası.

Баскаков, Н.А. (1984). О происхождении этнонима «башкыр». *Этническая ономастика*, 13-18. Наука.

Буниятов, З.М. (1965). *Азербайджан в VII-IX веках*. Элм.

Дьяконов, И.М. (1956). *История Мидии от древнейших времен до конца IV в. до н. э.* Наука.

Gültekin, Q. (2001). *Azerbaycanın doğusundaki yer adları*. Istanbul.

*İrəvan əyalətinin icmal dəftəri*. (1996). Elm.

Каганкатваци, М. (1861). *История Агван Моисея Каганкатваци, писателя X века* (пер.). Типография Императорской Академии наук.

Kırzıoğlu, M.F. (1953). *Kars Tarihi* (1-ci cilt). Işıl.

Геродот. (1972). *История*. Перевод и примечания Г.А.Стратановского. Наука.

Qeybullayev, Q. (1994). *Azərbaycan türklərinin təşəkkülü tarixindən*. Azərnəşr.

Qeybullayev, Q. (1992). *Qədim türklər və Ermənistan*. Azərbaycan Dövlət Nəşriyyatı.

*Малый атлас мира*. (1985). Картография ГУГК.

Манандян, Я.А. (1954). *О торговле в городах Армении в связи с мировой торговлей древних армян*. Айастан.

Марр, Н.Я. (1922). Кавказские племенные названия и местные параллели. Вып. 5. *Труды комиссии по изучению племенного состава России*. Рос. гос. Академ. тип.

Məmmədova, F.C. (1993). *Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası*. Elm.

Məmmədov, R. (1977). *Naxçıvan şəhərinin tarixi oçerki*. Elm.

*Naxçıvan sancağının müfəssəl dəftəri*. (1997). Sabah.

Плутарх. (1990). *Избранные жизнеописания* (том 2). Пер. с древне-греческого М.Томашевской, И.В.Медведева. Правда.

Радлов, В.В. *Опыт словаря тюркских наречий* (том 2, ч. 1). Госиздат.

Özdek, R. (1996). *Türkün qızıl kitabı* (1-ci cild). Tərc.: N.Yaqublu, L.Şüküroğlu; elmi red. H. Əliyev. Yazıçı.

Rzayev, F.H. (2013). *Naxçıvan əhalisinin etnogenezi tarixindən* (1-c cild). ADPU.

Rzayev, F.H. (2017). *Naxçıvan əhalisinin etnogenezi tarixindən* (2-ci cild). ADPU.

Seyidov, M. (1989). *Azərbaycan xalqının soykökünü d*üşünərkən. Yazıçı.

Сидоров, Е.И. (1984). Этноним Саха. *Этническая ономастика*, 39-44. Наука.

Страбон. (1964). *География в 17 книгах*. Пер. статья и комментарий Г.А.Стратановского. Наука.

Виноградов, В.Б. (1965). Сиракский союз племен на Северном Кавказе. *Советская археология* 1, 108-113.

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 15.05.2026**
**Son variant 03.06.2026**